Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 1 ” fevral tarixli
62s nömrəli Sərəncamı ilə
**təsdiq edilmişdir.**

**Azərbaycan Respublikasında 2025-2030-cu illər üzrə dövlət qulluqçuları üçün**

# TƏLİM STRATEGİYASI

## 1. Qısa xülasə

Dövlət qulluqçularının davamlı peşəkar inkişafını təmin etmək məqsədilə dövlət orqanlarının (qurumlarının), dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzlərinin, elm və təhsil müəssisələrinin fəaliyyəti təkmilləşdirilməli və əlaqələndirilməli, dövlət qulluqçularının təlimə olan tələbatlarını (təlim ehtiyaclarını) hərtərəfli ödəyən və müasir tələblərə cavab verən peşəkar və davamlı təlim sistemi formalaşdırılmalıdır. Dövlət qulluqçularının təlimi dövlət orqanlarının tələbatına və dövlət qulluqçularının maraqlarına uyğun həyata keçirilən, dövlət qulluğunda çalışmaq üçün zəruri bilik, bacarıq, təcrübə və səriştələrin mənimsənilməsindən və təkmilləşdirilməsindən ibarət məqsədyönlü və sistemli prosesə çevrilməlidir.

Dövlət qulluqçularının təliminin cari və perspektiv tələbatlara uyğun olaraq daha məqsədyönlü, planlı və sistemli təşkili bu sahədə əsas strateji istiqamətləri müəyyən edən sənədin – dövlət qulluqçuları üçün Təlim Strategiyasının (bundan sonra – Strategiya) hazırlanmasını zəruri etmişdir.

Strategiya dövlət qulluqçularının təlimi üzrə mövcud vəziyyətin qiymətləndirilməsini, bu sahədə başlıca dəyər və prinsiplərin formalaşdırılmasını, əsas strateji hədəflərin və bu hədəflərə çatmaq üçün həyata keçiriləcək çoxşaxəli, ardıcıl və mərhələli, orta və uzunmüddətli tədbirlərin və onların icra mexanizmlərinin müəyyən edilməsini təmin edən rəhbər sənəddir.

Strategiyanın əsas məqsədi dövlət qulluqçularının peşəkar inkişafı sisteminin təkmilləşdirilməsi, dövlət orqanlarının və dövlət qulluqçularının təlimə olan tələbatlarını (təlim ehtiyaclarını) hərtərəfli ödəyən peşəkar və davamlı təlim sisteminin formalaşdırılması yolu ilə dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır.

Strategiya hazırlanarkən mütərəqqi beynəlxalq təcrübə və dövlət qulluqçularının təlimə olan real tələbatlarına (təlim ehtiyaclarına) əsaslanan çağırışlar nəzərə alınmışdır.

Strategiyada dövlət qulluğu sahəsində müşahidə edilən qlobal trendlər və onların mövcud dövlət qulluğu sisteminə potensial təsirləri araşdırılmış, mövcud vəziyyət təhlil edilmiş, orta və uzunmüddətli dövr üçün strateji baxış formalaşdırılmış, hədəf göstəriciləri və prioritet istiqamətlər, o cümlədən icra müddətləri göstərilməklə müvafiq tədbirlər, əsas və digər icraçılar, gözlənilən nəticələr, icra mexanizmləri təsbit edilmişdir.

## 2. Dövlət qulluğunda təlimlər üzrə qlobal trendlər

2.1. Ölkənin sosial-iqtisadi həyatında baş verən proseslər dövlət qulluqçularının qısa müddət ərzində yeni şəraitə uyğunlaşmasını, bu şəraitin tələblərinə uyğun bilik, bacarıq, təcrübə və səriştələri əldə etməsini tələb edir. Bu isə öz növbəsində dövlət qulluqçularına dəyişən dövrün tələblərinə cavab verən, qarşıya qoyulmuş yeni məqsədlərə və hədəflərə çatmaq üçün lazımi bilik, bacarıq, təcrübə və səriştələri əldə etməyə imkan verən səmərəli, peşəkar və davamlı təlim sisteminin yaradılmasını labüd edir. Yeni texnologiyaların tətbiqi və rəqəmsal transformasiyanın inkişafı dövlət qulluqçularına keçirilən təlimlərin məhsuldarlığının artmasına müsbət təsir edir. Buna görə də dövlət qulluğu sahəsində keçirilən təlimlərdə innovativ yanaşmanın, yeni alət və vasitələrin tətbiqi zəruridir. Belə ki, təlimlər zamanı paylaşılan məlumatlar yalnız nəzəri bilikləri deyil, həmçinin biliklərin tətbiqi bacarıqlarını əhatə etməli, dinamik dəyişikliklərin təlim modullarının hazırlanması prosesinə düzgün və vaxtında adaptasiyası təmin edilməli, dövlət qulluqçularının təlimə olan tələbatları (təlim ehtiyacları) mütəmadi öyrənilməlidir.

2.2. Dövlət qulluqçularının təlimi aşağıdakı prinsiplərə əsaslanmalıdır:

2.2.1. məqsədyönlülük – dövlət qulluqçularının təliminin onların peşəkar və davamlı inkişafını təmin etməsi, dövlət orqanının məqsədlərinə, vəzifənin qulluq funksiyalarına və dövlət qulluqçusunun fərdi inkişaf ehtiyaclarına uyğunluğu;

2.2.2. təyinatlılıq – dövlət qulluqçularının təliminin dövlət orqanının fəaliyyətinin təkmilləşdirilməsi, effektivliyinin artırılması və dövlət qulluqçusunun peşəkar və davamlı inkişafı məqsədilə aparılması;

2.2.3. səmərəlilik – dövlət qulluqçularının təliminə az resurs sərf etməklə yüksək keyfiyyətli nəticənin əldə edilməsi, habelə inkişafına əhəmiyyətli dərəcədə investisiya yatırılmış dövlət qulluqçularının dövlət qulluğunda saxlanılması üçün zəruri tədbirlərin görülməsi;

2.2.4. sistemlilik – dövlət qulluqçularının təliminin sistemli qaydada dövlət qulluğu sahəsində və dövlət orqanlarının fəaliyyətində baş verən yeniliklərlə əlaqəli şəkildə həyata keçirilməsi;

2.2.5. davamlılıq – cari təlimə olan tələbatların (təlim ehtiyaclarının) ödənilməsi şərtilə dövlət qulluqçularının təliminin daimi xarakter daşıması;

2.2.6. innovativlik – dövlət qulluqçularının təliminin müasir dövrün tələblərinə cavab verən, innovativ metodlara əsaslanması;

2.2.7. bərabərlik ––dövlət qulluqçularının təlimlərə cəlb olunmasında bərabər imkanların və şəraitin yaradılması;

2.2.8. nəzarət – dövlət qulluqçularının təlimi, peşəkar və davamlı inkişafı sahəsində nəzarətin həyata keçirilməsi;

2.2.9. nəticəyönümlülük – dövlət qulluqçularının iştirak etdiyi təlimlərdə yiyələndikləri bilik, bacarıq, təcrübə və səriştələrin iş prosesində tətbiqi;

2.2.10. qiymətləndirilə bilən– hər təlimin sonunda dövlət qulluqçularının yiyələndikləri bilik, bacarıq, təcrübə və səriştələrin qiymətləndirilməsi;

2.2.11. elmi-praktiki baxımdan əsaslandırıla bilən - təlim mövzuları və materiallarının fundamental nəzəriyyələrlə, təcrübədə əldə olunmuş nəticələrlə, habelə normativ hüquqi aktlarla əsaslandırılması.

## 3. Dövlət qulluqçularının təlimi sahəsində mövcud vəziyyətin təhlili

3.1. Dövlət qulluqçularının təlimi sahəsində mövcud vəziyyətin təhlili nəticəsində aşağıdakı nailiyyətlərin əldə olunduğu müəyyən edilmişdir:

3.1.1. dövlət qulluqçularının inkişafı sahəsində ilkin normativ hüquqi bazanın mövcudluğu;

3.1.2. dövlət qulluqçularının peşəkarlığının artırılmasını və bu sahədə dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini təmin edən ixtisaslaşmış dövlət qurumunun – Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (bundan sonra - Mərkəz) fəaliyyət göstərməsi;

3.1.3. dövlət idarəçiliyi və dövlət orqanları üçün müvafiq ixtisaslar üzrə mütəxəssis hazırlığını və əlavə təhsili həyata keçirən aparıcı tədris, metodiki, elm və analitik informasiya mərkəzi kimi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının mövcudluğu;

3.1.4. ayrı-ayrı dövlət orqanlarının (qurumlarının) tabeliyində təlim-tədris mərkəzlərinin fəaliyyət göstərməsi;

3.1.5. dövlət strategiyaları və proqramlarında dövlət qulluqçularının potensialının artırılmasına diqqətin ayrılması;

3.1.6. dövlət qulluğu sahəsində müxtəlif istiqamətlər üzrə yeni informasiya texnologiyalarının tətbiqi;

3.1.7. dövlət orqanları tərəfindən dövlət qulluqçularının idarəetmə bacarıqlarının təkmilləşdirilməsinə diqqətin artırılması;

3.1.8. dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi sisteminin tətbiqi;

3.1.9. təlimlərin təşkili və keçirilməsi sahəsində dövlət orqanlarının və təhsil müəssisələrinin kadr potensialından istifadə edilməsinin mümkünlüyü;

3.1.10. dövlət qulluqçularının potensial imkanlarının artırılması üzrə layihələrin həyata keçirilməsi.

3.2. Dövlət qulluqçularının təlimi sahəsində mövcud vəziyyətin təhlili nəticəsində bu sahədə əldə edilmiş nailiyyətlərlə yanaşı, bəzi çatışmazlıqların da mövcud olduğu müəyyən edilmişdir. Qeyd edilən çatışmazlıqların əsas səbəbləri aşağıdakılardır:

3.2.1. dövlət qulluqçuları və dövlət orqanları tərəfindən təlimlərə kifayət qədər diqqət yetirilməməsi, təlimlərin sistemli, məqsədyönlü və davamlı xarakter daşımaması;

3.2.2. təlimlərin dövlət qulluğunda insan resurslarının idarə edilməsi sistemində yerinin və rolunun aydın müəyyən edilməməsi;

3.2.3. dövlət qulluqçularının peşəkar və davamlı inkişafı sahəsində mövcud qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyacın olması;

3.2.4. dövlət qulluqçularının təliminin vahid elektron idarəetmə sisteminin olmaması;

3.2.5. dövlət qulluqçuları üçün prioritet təlim istiqamətlərinin və bu istiqamətlər üzrə təlimdə iştirak dövriliyinin müəyyən edilməməsi;

3.2.6. dövlət qulluqçularının təlimi sahəsində aidiyyəti qurumlar arasında əməkdaşlığın və əlaqələndirmənin zəifliyi;

3.2.7. təlimə olan tələbatların (təlim ehtiyaclarının) öyrənilməsinin işlək mexanizminin olmaması;

3.2.8. dövlət qulluqçularının təliminin maliyyələşdirilməsi mexanizminin müasir dövrün tələblərinə cavab verməməsi.

## 4. Hədəf göstəricilər

4.1. Strategiyanın əsas hədəf göstəriciləri aşağıdakılardır:

4.1.1. dövlət orqanlarının və dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin yüksəldilməsi;

4.1.2. dövlət xidmətlərindən istifadə edən vətəndaşların məmnunluğunun artırılması;

4.1.3. dövlət qulluqçularının peşəkar və davamlı inkişafına nail olunması, müasir dövrün tələblərinə cavab verən bilik, bacarıq, təcrübə və səriştələrə malik dövlət qulluqçuları korpusunun formalaşdırılması.

## 5. Əsas strateji məqsədlər

5.1. Strategiyada nəzərdə tutulan hədəf göstəricilərə nail olmaq üçün qarşıya qoyulan əsas strateji məqsədlər aşağıdakılardır:

5.1.1. dövlət qulluqçularının təliminə diqqətin artırılması, təlimlərin sistemli, məqsədyönlü və davamlı xarakter daşıması;

5.1.2. təlimlərin dövlət qulluğunda insan resurslarının idarə edilməsi sistemində yerinin və rolunun aydın müəyyən edilməsi;

5.1.3. dövlət qulluqçularının peşəkar və davamlı inkişafının qanunvericiliklə tənzimlənməsi;

5.1.4. dövlət qulluqçularının təlimi sahəsində aidiyyəti qurumlar arasında əməkdaşlıq və əlaqələndirmənin gücləndirilməsi;

5.1.5. təlimə olan tələbatın (təlim ehtiyacının) öyrənilməsinin işlək mexanizminin yaradılması;

5.1.6. dövlət qulluqçularının təliminin maliyyələşdirilməsi mexanizminin müasir dövrün tələblərinə uyğunlaşdırılması.

## 6. Prioritet istiqamətlər

6.1. Strategiyada müəyyən edilmiş məqsədlərin reallaşdırılması üçün aşağıdakı prioritet istiqamətlər müəyyən edilmişdir:

6.1.1. Dövlət qulluqçularının təliminin vahid elektron idarəetmə sistemi vasitəsilə həyata keçirilməsi

Dövlət qulluqçularının təlimə olan tələbatının (təlim ehtiyacının) müəyyən edilməsi, təlimlərin daha effektiv təşkili, sistemli və əlaqələndirilmiş keçirilməsi, təlim nəticələrinin qiymətləndirilməsi, dövlət orqanlarının (qurumlarının), dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzlərinin, elm və təhsil müəssisələrinin bu sahədə fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Mərkəz tərəfindən “Dövlət qulluqçularının təliminin vahid elektron idarəetmə sistemi” (bundan sonra- Sistem) yaradılır.

Sistemin sahibi Mərkəz, Sistemin iştirakçıları (bundan sonra – iştirakçı) dövlət orqanları (qurumları), dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzləri, elm və təhsil müəssisələridir.

Məsul şəxslər tərəfindən Sistemə daxil edilən təlimlər haqqında məlumatlar (təlim modulunun adı, təlimin məzmunu, müddəti, keçirilmə forması və s.) Mərkəzlə razılaşdırılır. Razılaşdırılmış məlumatlar Mərkəz tərəfindən təsdiq edildikdən sonra dövlət orqanlarının (qurumlarının) məsul şəxsləri Sistem vasitəsilə təlimə olan tələbatlarına (təlim ehtiyaclarına) uyğun olaraq müvafiq təlim modulları üzrə müraciət edə (təlim modullarını seçə) bilərlər.

6.1.2. Dövlət qulluqçularının təlimə olan tələbatlarının (təlim ehtiyaclarının) müəyyən edilməsi

Təlimlərin məqsədyönlü şəkildə təşkil edilməsi, dövlət orqanlarının və dövlət qulluqçularının təlimə olan real tələbatlarının (təlim ehtiyaclarının) ödənilməsi, təlimlərin

təşkili və keçirilməsi ilə bağlı dövlət büdcəsindən ayrılan vəsaitin proqnozlaşdırılması məqsədilə təlimə olan tələbatlar (təlim ehtiyacları) müəyyən edilir. Dövlət qulluqçularının peşəkar inkişafının keyfiyyətini artırmaq məqsədilə onların real təlim tələbatlarının (təlim ehtiyaclarının) öyrənilməsi mütəmadi qaydada həyata keçirilməlidir.

Təlimə olan tələbatlar (təlim ehtiyacları) müəyyən edilərkən aşağıdakı prioritet təlim istiqamətləri əsas götürülür:

- dövlət idarəçiliyi və dövlət qulluğu ilə bağlı təlimlər;
- səriştələrin təkmilləşdirilməsi ilə bağlı təlimlər;
- dövlət orqanının (qurumunun) fəaliyyət istiqaməti ilə bağlı təlimlər;
- dövlət qulluqçusunun tutduğu vəzifənin fəaliyyət istiqamətləri ilə bağlı təlimlər.

Dövlət qulluqçusunun təlimlərə cəlb olunması üçün əsaslar aşağıdakılardır:

- ilk dəfə dövlət qulluğu vəzifəsinə təyin edilməsi;
- dövlət qulluğunda rəhbər vəzifəyə təyin edilməsi;
- başqa dövlət qulluğu vəzifəsinə təyin edilməsi;
- xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi;
- dövlət qulluqçusunun bilavasitə rəhbərinin və ya dövlət orqanı rəhbərinin təşəbbüsü;
- barəsində karyera inkişaf planının tərtib edilməsi;
- Strategiyanın tədbirlər planı.

Məsul şəxslər Sistem vasitəsilə dövlət qulluqçularının Strategiyada nəzərdə tutulan prioritet təlim istiqamətləri üzrə təlimə olan tələbatlarını (təlim ehtiyaclarını) ümumiləşdirirlər. Təlimə olan tələbatlar (təlim ehtiyacları) məsul şəxslərin Sistemə daxil etdikləri məlumatlar əsasında Mərkəz tərəfindən öyrənilir.

Dövlət qulluqçularının davamlı inkişafının təmin edilməsi məqsədilə təlimin keçirilməsinə cəlb edilən təlimçilərdən ibarət peşəkar təlimçi korpusu formalaşdırılmalıdır.

6.1.3. Təlimlərin təşkili və keçirilməsi

Strategiyada nəzərdə tutulan prioritet təlim istiqaməti - dövlət idarəçiliyi və dövlət qulluğu ilə bağlı təlimlər Mərkəz və ya Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən təşkil edilir və keçirilir.

Strategiyada nəzərdə tutulan prioritet təlim istiqaməti - səriştələrin təkmilləşdirilməsi ilə bağlı təlimlər Mərkəz tərəfindən təşkil edilir və keçirilir. Bu təlimlərdə xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsində “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 30-1.6-cı və 30-1.7-ci maddələrində nəzərdə tutulan meyarların hər hansı birinin təkmilləşdirilməsinə ehtiyac olan dövlət qulluqçuları iştirak edirlər.

Strategiyada nəzərdə tutulan prioritet təlim istiqaməti - dövlət orqanının (qurumunun) fəaliyyət istiqaməti ilə bağlı təlimlər müvafiq dövlət orqanları (qurumları) tərəfindən təşkil edilir və keçirilir. Bu təlimlərdə həmin dövlət orqanlarında qulluq keçən dövlət qulluqçuları 2 (iki) ildə bir dəfədən az olmayaraq iştirak edirlər.

Strategiyada nəzərdə tutulan prioritet təlim istiqaməti - dövlət qulluqçusunun tutduğu vəzifənin fəaliyyət istiqamətləri ilə bağlı təlimlər Mərkəz və ya iştirakçılar tərəfindən təşkil edilir və keçirilir. Bu təlimlərdə müvafiq vəzifəni tutan dövlət qulluqçuları 3 (üç) ildə bir dəfədən az olmayaraq iştirak edirlər.

Dövlət orqanlarının (qurumlarının) məsul şəxsləri tərəfindən ümumiləşdirilmiş təlimə olan tələbatlar (təlim ehtiyacları) əsasında Mərkəzə və ya müvafiq iştirakçıya sistem vasitəsilə sorğu göndərilir. Sorğunu qəbul edən iştirakçı və ya Mərkəz qarşılıqlı razılıq əsasında təlimlərin keçirilməsini təmin edir.

Dövlət qulluqçularının peşəkar və davamlı inkişafı sahəsində normativ hüquqi baza təkmilləşdirilməlidir.

6.0.4. Keçirilmiş təlimlərin nəticələrinin qiymətləndirilməsi

Qarşıya qoyulmuş məqsədlərin əldə edilməsi səviyyəsinin və təlimlərdən əldə edilmiş faydanın müəyyənləşdirilməsi üçün təlim nəticələrinin qiymətləndirilməsi aparılır.

Təlimin məzmunundan asılı olaraq iştirakçıların məmnunluq səviyyəsi, təlimlərdən əldə etdikləri bilik, bacarıq, təcrübə və səriştələr qiymətləndirilir.

Təlimi müvəffəqiyyətlə keçən dövlət qulluqçularına Mərkəz tərəfindən sertifikatın verilməsi təmin edilir.

Təlimlərin qiymətləndirilməsinin nəticələri təhlil edilir və növbəti təlimlərin təşkili və keçirilməsi zamanı nəzərə alınır.

## 7. Strategiyanın maliyyələşdirilməsi

Bu Strategiyanın 6-cı hissəsində nəzərdə tutulan tədbirlər dövlət büdcəsindən və qanunla qadağan olunmayan digər mənbələrdən maliyyələşdirilir.

## 8. Strategiyanın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə |
|---|---|---|---|---|---|
| | **8.1. Prioritet 1. Dövlət qulluqçularının təliminin vahid elektron idarəetmə sistemi vasitəsilə həyata keçirilməsi** | | | | |
| 8.1.1 | "Dövlət qulluqçularının təliminin vahid elektron idarəetmə sistemi"nin ( bundan sonra- Sistem) yaradılması | DİM | RİNN | 2025 | dövlət qulluqçuları üçün keçirilən təlimlər, habelə təlim almış dövlət qulluqçuları barədə vahid bazanın formalaşdırılması |
| 8.1.2 | Dövlət orqanlarının (qurumlarının), dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzlərinin, elm və təhsil müəssisələrinin Sistemə qoşulması | DİM | RİNN, müvafiq dövlət orqanları (qurumları), müvafiq dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzləri, elm və təhsil müəssisələri | 2026 | məsul şəxslərin sistemin funksiyalarından tam istifadə etmələrinin təmin edilməsi |
| 8.1.3 | Təlim modullarının Sistemə daxil edilməsi | DİM | müvafiq dövlət orqanları (qurumları), müvafiq dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzləri, elm və təhsil müəssisələri | 2026 | təlim modullarını Sistemə yerləşdirməklə dövlət orqanları (qurumları) üçün əlçatanlığın təmin edilməsi |
| | **8.2. Prioritet 2. Dövlət qulluqçularının təlimə olan tələbatlarının (təlim ehtiyaclarının) müəyyən edilməsi** | | | | |
| 8.2.1 | Dövlət qulluqçularının təlimə olan tələbatlarının (təlim ehtiyaclarının) araşdırılması və dövlət qulluqçularının | DİM | müvafiq dövlət orqanları (qurumları) | mütəmadi | dövlət qulluqçularının təlimə olan real tələbatlarının müəyyən edilməsi, təlimə olan tələbatların (təlim ehtiyaclarının) |

| | | | | | |
|---|---|---|---|---|---|
| | təlimə olan real tələbatlarının müəyyən edilməsi | | | | məqsədyönlü və səmərəli ödənilməsinin təmin edilməsi |
| 8.2.2 | Təlimçilər üçün təlimlərin təşkil edilməsi | DİM | müvafiq dövlət orqanları (qurumları), müvafiq dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzləri, elm və təhsil müəssisələri | mütəmadi | peşəkar təlimçi bazasının formalaşdırılması |
| 8.2.3. | Hər il dövlət büdcəsinin layihəsi hazırlanarkən dövlət orqanlarında (qurumlarında) qulluq keçən dövlət qulluqçularının təlimə olan tələbatları (təlim ehtiyacları) ilə bağlı maliyyə vəsaitinin nəzərə alınması | MN | dövlət orqanları (qurumları) | mütəmadi | dövlət qulluqçularının təliminin maliyyələşdirilməsi mexanizminin müasir dövrün tələblərinə uyğunlaşdırılması |
| | **8.3. Prioritet 3. Təlimlərin təşkili və keçirilməsi** | | | | |
| 8.3.1 | Dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzlərinin, o cümlədən dövlət qulluqçularının təlimi prosesinə cəlb olunan elm və təhsil müəssisələrinin tədris imkanlarının, təlim-tədris bazasının, metodiki resurslarının inkişaf etdirilməsi | müvafiq dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzləri, elm və təhsil müəssisələri | DİM, DİA | 2027 | təlim-tədris işinin keyfiyyətli, səmərəli və interaktiv təşkil edilməsi |

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.3.2 | Dövlət qulluqçularının peşəkar və davamlı inkişafı sahəsində mövcud qanunvericiliyin təkmilləşdirilməsi | NK | DİM,<br>ƏN,<br>DİA | 2025 | dövlət qulluqçularının peşəkar inkişafı sisteminə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi |
| 8.3.3 | İlk dəfə dövlət qulluğu vəzifəsinə təyin edilmiş şəxslər üçün dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi, etik davranış, maraqlar toqquşması, korrupsiyaya qarşı mübarizə və s. ilə bağlı təlimlərin keçirilməsi | DİM | DİA,<br>müvafiq dövlət orqanları (qurumları) | mütəmadi | ilk dəfə dövlət qulluğu vəzifəsinə təyin edilmiş şəxslərin peşəkarlığının artırılması |
| 8.3.4 | Dövlət qulluğunda rəhbər vəzifəyə təyin edilmiş dövlət qulluqçularına idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi, komanda qurmaq və s. ilə bağlı təlimlərin keçirilməsi | DİA<br>DİM | müvafiq dövlət orqanları (qurumları) | mütəmadi | dövlət qulluğunda rəhbər vəzifəyə təyin edilmiş dövlət qulluqçularının peşəkarlığının artırılması |
| 8.3.5 | Dövlət qulluqçularına dövlət idarəçiliyi və dövlət qulluğu ilə bağlı təlimlərin keçirilməsi | DİM | DİA,<br>müvafiq dövlət orqanları (qurumları) | mütəmadi | dövlət qulluqçularının peşəkarlığının artırılması, davamlı inkişafının təmin edilməsi |
| 8.3.6 | Dövlət qulluqçularına dövlət orqanının (qurumunun) fəaliyyət istiqamətləri ilə bağlı təlimlərin keçirilməsi | müvafiq dövlət orqanları (qurumları) | müvafiq dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzləri, elm və təhsil müəssisələri | mütəmadi | dövlət qulluqçularının peşəkarlığının artırılması, davamlı inkişafının təmin edilməsi |
| 8.3.7 | Dövlət qulluqçularına tutduğu vəzifənin fəaliyyət istiqamətləri ilə bağlı təlimlərin keçirilməsi | müvafiq dövlət orqanları (qurumları) | DİM,<br>müvafiq dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzləri, elm və təhsil müəssisələri | mütəmadi | dövlət qulluqçularının peşəkarlığının artırılması, davamlı inkişafının təmin edilməsi |
| 8.3.8 | Dövlət qulluqçularına səriştələrin təkmilləşdirilməsi ilə bağlı təlimlərin keçirilməsi | DİM | müvafiq dövlət orqanları (qurumları) | 2026-cı ildən başlayaraq mütəmadi | dövlət qulluqçularının peşəkarlığının artırılması, davamlı inkişafının təmin edilməsi |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **8.4. Prioritet 4. Keçirilmiş təlimin nəticələrinin qiymətləndirilməsi** | | | | |
| 8.4.1 | Təlim nəticələrinin qiymətləndirilməsinə dair təkliflərin hazırlanması | DİM | DİA, dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris mərkəzləri, elm və təhsil müəssisələri | 2026-cı ildən başlayaraq mütəmadi | təlimlərin keyfiyyətinin və iştirakçıların məmnunluq səviyyəsinin artırılması |
| 8.4.2 | Dövlət qulluqçularının təlimi və peşəkar inkişafı sahəsində DİM-in funksionallığının artırılması | NK | DİM | 2025 | dövlət qulluqçularının təlimə olan tələbatlarını (təlim ehtiyaclarını) hərtərəfli ödəyən və müasir tələblərə cavab verən peşəkar və davamlı təlim sisteminin formalaşdırılması |
| 8.4.3 | Dövlət qulluqçularının təlimi və peşəkar inkişafı məsələlərinə dair ümumiləşdirmələrin aparılması | DİM | müvafiq dövlət orqanları (qurumları), dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təlim-tədris müəssisələri, elm və təhsil müəssisələri | 2026-cı ildən başlayaraq mütəmadi | dövlət qulluqçularının təlimi sahəsində hesabatlılığın təmin edilməsi məqsədilə DİM tərəfindən hazırlanmış yekun hesabatın NK-ya təqdim edilməsi |

AKRONİMLƏR

NK – Azərbaycan Respublikasının Nazirlər Kabineti
ƏN – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
MN – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
RİNN – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
DİM – Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi
DİA – Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.

---